# ““Əsrin müqaviləsi” tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır””

“Heydər Əliyev İli” çərçivəsində Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ““Əsrin müqaviləsi” tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır” mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova tədbir iştirakçılarını salamlayaraq, "Əsrin müqaviləsi" ilə müstəqilliyini möhkəmləndirən Azərbaycanın öz sərvətlərinə tam sahib olduğunu diqqətə çatdırmış, Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar, Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu qeyd etmişdir. Çıxış edənlər ulu öndərin təşəbbüsü ilə imzalanan “Əsrin müqaviləsi”-nin və bu tarixi hadisənin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətindən bəhs etmiş, milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olunması və bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün cəsarətli siyasi addımlar atıldığını bildirmiş, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan iqtisadi inkişaf mərhələsinin bu gün onun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışmışlar. Sonda ““Əsrin müqaviləsi” tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır” mövzusunda şeirlər dinlənilmiş və videoçarx nümayiş olunmuşdur.



# ”Azəriqaz“ İB-nin "Açıq mikrofon" aksiyası keçirilib



SOCAR “Azəriqaz” İB-nin “Səyyar qəbul otağı” Qəbələ rayon Zarağan kəndində təşkil olunub. “Azəriqaz” İstehsalat Birliyinin əməkdaşları aksiyada iştirak edən sahibkarların və vətəndaşların qaldırdıqları problem və təklifləri dinləmiş, həllini nəzarətə götürmüşlər.

# Abadlıq işləri davam etdirilir

Rayonumuzda aparılan abadlıq işləri çərçivəsində yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədi ilə Qəbələ şəhər bələdiyyəsi tərəfindən şəhərin Qara Qarayev küçəsinə yeni asfalt örtüyü çəkilir.



# Sən kimə gərəksən, mən kimə gərək...

(Əvvəli 5-ci səhifədə).

Ailənin övladları Vətəni xidmət illərində həmişə fərqlənmiş, ayıq-sayıq, müsəlləh əsgər olmuşlar. Kamran 2015 - 2017-ci illərdə həqiqi əsgəri xidmətdə olmuş, Füzuli rayonunun Horadiz qəsəbəsində arxa cəbhənin qorunmasında, 44 günlük müharibə zamanı işi ilə əlaqədar mülki əhalinin müdafiəsi xidmətində olmuşdur.

Ailənin kiçik övladı Cavidan 22 yaşındadır. O, 2019-cu ildə həqiqi hərbi xidmətə getmiş, 2-ci Vətən müharibəsində iştirak etmişdir. Döyüş şücaətinə görə "Ağdamın azad olunması uğrunda" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

**Sən kimə gərəksən...**

Hər bir insan övladı ayaq basdığı torpağa, ona həyat verən valideynlərinə, aid olduğu vətənə gərəkdir. Məmməd Araz dili ilə desək:

***Keçək dərələrin boğanağından,***
***Keçək dolayların doğanağından,***
***Günəşin zirvədə doğan anından,***
***Nur alıb bu yurda səpələnməsək,***
***Sən kimə gərəksən,***
***Mən kimə gərək...***

Bəli, günəşdən nur aldı, son dəfə getdiyi ata ocağından güc... Doğmalarıyla görüşdü, isti nəfəslərini ciyərlərinə çəkdi... anası Adilə xanımın bişirdiyi ana yeməyini daddı... Doğma kəndinin zahiri gözəlliyini göz aynasına çəkdi... Bilirdi çaxnaşmaları, erməni vandallarının vəhşiliklərini... Ona görə də vətənin ona oğul deməsinin çağrışına daima hazır olurdu. Bu dəfə də... Sentyabrda ümummilli anım günü ərəfəsində erməni terroristlərinin törətdiyi terror hadisələri layiqli cavablarını almalı idi... Tamerlan Soltanbəyli döyüşçü dostları ilə birlikdə döyüşlərə qatıldı... Ayın 19-da şücaətlə döyüşdü. Sentyabrın 20-də isə onun şəhadətə qovuşması xəbəri ailəsinə çatdırıldı... Tamerlan Vətənə gərəkli bir övlad idi. Qəlbindəki arzularını pillə-pillə həyata keçirirdi. Tarixi yeni yazanlardan biri olsa da , qəlbinin arzuları çiləndi həyatda. Gözlərində sevgi, ailəsinin toy həsrəti, qəlbində vətəninin tam bütövlüyünü görmək arzusu... Arzular sonsuz... Elə bu arzuları qəlbinə, gözlərinə gömərək əbədiyyətə qovuşdu...

Tamerlan Ağdərə uğrunda gedən döyüşlərdə şəhadətə qovuşdu; ayağından aldığı yarasından qan itirərək... Cibində isə Azərbaycan bayrağı... Bəlkə də döyüş zamanı atışmalar aman versəydi onu xilas etmək mümkün olardı. Görəsən son damla qanının axmasına kimi kiminsə ona kömək edə biləcəyini düşündümü igidim?! Bəlkə də bu qanın torpağa axması ilə özünün bu vətənə gərəkli əsil oğul olduğunu düşünüb?.. Axı vətəni də vətənləşdirən torpağına axan qanlar olmuş! Elə buna görə də vətən onu sevənlərə oğul deyir. Oğulları isə qan çəkir özünə - torpaqları Vətən etmək üçün!

Tamerlan həmişəbahar ömrü ilə qayalarda bitən mamır oldu, çünki Vətən ona oğul demişdi. Sentyabrın 21-də Tamerlan Soltanbəyli doğulduğu Qəbələ rayonunun Tüntül kəndində, həmyerlisi, silahdaşı şəhid Rüstəm Atakişiyevlə yanaşı dəfn olundu. Məzarı üstündə anasının al-qırmızı nişan şərfini bürüdüyü şəklinə baxdıqca, şəhidim baxışları ilə onu ziyarətə gələnlərə səslənir sanki:

***Yüyür mənsiz dağlaracan , buludlaracan,***
***Haray çəksən qayalarda səslənər adım!..***

**BİBİXANIM,**
**“Qəbələ”**

## Heç kəs unudulmur

# Ürəklərdə yaşayır



Azərbaycan Ordusunun əsgəri olan İsmayıl Qurbanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Vətən Müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. İsmayıl Qurbanov 27 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı həlak olmuşdur. 28 sentyabr 2020-ci ildə Qəbələ rayonunun Soltannuxa kəndində dəfn olunmuşdur.

İsmayıl Qurbanov ölümündən sonra "Vətən uğrunda", “Füzulinin azad olunmasına görə”, “Şücaətə görə”, “Cəsur döyüşçü” medalları ilə təltif edilmişdir.

Rayonumuzun 2020-ci il II vətən müharibəsinin ilk şəhid qəhrəmanı - İsmayıl Qurbanov artıq 3 ildir ki, cismən aramızda yoxdur, ancaq şəhadət yolçusu əbədiyyən ürəklərdə, yeni tarix yazan bir igid kimi yaşayacaqdır.

# Qəbələnin ikinci şəhidi



II Vətən Müharibəsi başlayarkən rayonumuzun gəncləri də döyüşlərdə iştirak etmək üçün hərbi komissarlığa gedərək könüllü ərizələr yazır, torpaqlarımızı yağı tapdağından azad etmək istəyirdilər.

30 illik məğlubiyyət sözünün aradan götürülməsi üçün gənclər məhz zəfər qazanacağı bir hisslə Ali Baş Komandanımızın ətrafında sıx birləşirdilər. Azərbaycan ordusunda həqiqi hərbi xidmətdə olan gənclər də bu missiyanın əsil davamçıları idi. 19 yaşlı gənc Hakim Baxışov da məhz belə gənclərdən idi.

Hakim Baxışov 2019-cu ilin yanvarından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq xidmətini davam etdirmişdir.

Hakim Baxışov 28 sentyabrda Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Hakim Baxışov Topbağ kəndində dəfn olunmuşdur. İgid şəhidimiz ölümündən sonra “Vətən uğrunda”, “Hərbi xidmətə görə”, “Kəlbəcərin azad olunmasına görə” medalları və “Azərbaycan Bayrağı” ordeni ilə təltif olunmuşdur.

Onun əziz xatirəsi hər bir vətənpərvər insanın yaddaşında əbədi yaşayır.

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**